# Prezident İlham Əliyev daim jurnalist fəaliyyətinin təhlükəsizliyinin təmin olunması üçün zəruri tədbirlər görür

Jurnalistlər cəmiyyətin düşünən beynidir. Onlar hadisə və proseslərə obyektiv yanaşmaları ilə seçilirlər. Demokratik cəmiyyətin qurulması işində azad medianın xüsusi rolu var. Müasir dünyada inkişaf etmiş ölkələrdə azad medianın səviyyəsi ümumilikdə ölkənin səviyyəsini göstərir. Azərbaycanda isə azad medianın inkişafı ilə bağlı çox önəmli qərarlar qəbul edilmişdir. İldən-ilə bu sahəyə dövlətin diqqət və dəstəyi artıb. Son illər ərzində Azərbaycan mediası müxtəlif parametrlər üzrə çox böyük irəliləyişə nail ola bilmişdir.

Azərbaycanda mətbuata göstərilən dövlət qayğısı davamlı və sistemli səciyyə daşıyır. Prezident İlham Əliyev respublikada kütləvi informasiya vasitələrinin sərbəst fəaliyyətinin, jurnalistlərin öz iradələrini azad şəkildə ifadə etməsinə bütün imkanların yaradılmasının tərəfdarı kimi çıxış edir, milli mətbuatın qabaqcıl dövlətlərin mütərəqqi ənənələrinə əsaslanmaqla, eyni zamanda xalqın tarixi-milli xüsusiyyətlərini qorumaqla inkişaf etməsini vacib sayır. Hazırda Azərbaycanda 200-dən artıq qəzet, 100-ə yaxın jurnal, 50-dən çox televiziya və radio kanalı, onlarla mətbuat yayımı şirkəti və jurnalist təşkilatı fəaliyyət göstərir. İnternetin sürətli inkişafı çoxsaylı informasiya resurslarının yaranmasına səbəb olmuş, ölkə əhalisi arasında internet yayımı 75 faizə çatmış, sosial şəbəkə istifadəçilərinin sayı 2 milyona yaxınlaşmışdır. "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"na uyğun olaraq mətbuatın müstəqilliyinin dəstəklənməsi, redaksiyalara yardım mexanizminin təkmilləşdirilməsi, müasir texnologiyaların tətbiqi, cəmiyyət və mətbuat arasında səmərəli əməkdaşlığın gücləndirilməsi, jurnalistlərin sərbəst fəaliyyəti, təhlükəsizliyinin təminatı, peşəkarlığının və məsuliyyətinin artırılması, sosial şəraitinin yaxşılaşdırılması və əməyinin qiymətləndirilməsi istiqamətində ardıcıl tədbirlər davam etdirilir.

Avqustun 9-da Azərbaycan cəmiyyəti jurnalist Rasim Əliyevin faciəli ölümü ilə sarsıldı. "Ann.az" saytının əməkdaşı olan Rasim Əliyevin bir qrup şəxs tərəfindən döyülüb, ertəsi gün xəstəxanada vəfat etməsi ölkə ictimaiyyətini narahat etməyə bilməzdi. Bildirilir ki, jurnalist Rasim Əliyev Facebook sosial şəbəkəsində yazdığı statusa görə bir qrup şəxs tərəfindən təzyiqə məruz qalıb. Həkimlər onun həyatını xilas edə bilməyiblər. Hadisə dərhal respublika Baş Prokurorluğu və Daxili İşlər Nazirliyinin rəhbərliyi tərəfindən xüsusi nəzarətə götürülüb. Jurnalisti döyən şəxslərin tez bir zamanda həbs edilib istintaqa cəlb edilməsi ilə bağlı xüsusi göstəriş verilib.

Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov da dərhal bu məsələyə münasibət bildirərək qeyd edib ki, "Ann.az" saytının əməkdaşı Rasim Əliyevin döyülməsi və vəfat etməsi məsələsi xüsusi nəzarətə götürülüb və ciddi araşdırılır: "Hadisənin baş vermə səbəbləri, iştirakçıların tam dairəsinin müəyyənləşdirilməsi və digər məsələlər barədə ictimaiyyətə əlavə məlumat veriləcək. Bununla yanaşı, aidiyyəti dövlət orqanlarının məlumatını gözləmədən ayrı-ayrı informasiya resurslarının məsələni müxtəlif istiqamətlərə yozmaq cəhdlərini yolverilməz hesab edir və obyektiv araşdırmanın nəticələrini gözləməyi tövsiyə edirik".

Bu məsələ ilə Azərbaycan Prezidenti İlham Əliyev dərhal maraqlanıb. Dünən Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov AZƏRTAC-a bildirib ki, dövlət başçısı jurnalist Rasim Əliyevin döyülməsi və fiziki xəsarət alaraq dünyasını dəyişməsi barədə məlumatdan ciddi narahat olub: "Azərbaycan Prezidenti bu faktı ölkədə söz və məlumat azadlığına, kütləvi informasiya vasitələrinin müstəqil fəaliyyətinə təhlükə və təhdid kimi qiymətləndirərək qeyd etmişdir ki, demokratik prinsiplərin mühüm tərkib hissəsi olan KİV azadlığının təmin edilməsi Azərbaycan dövlətinin ali məqsədi və prioritet vəzifələrindən biridir. Bu prinsipin pozulması dövlətin maraqlarına və həyata keçirilən siyasətin mahiyyətinə tamamilə ziddir və yolverilməzdir".

Əli Həsənov əlavə edib ki, Prezident İlham Əliyev hadisə barədə xəbər tutan kimi Azərbaycan Respublikasının Baş Prokurorluğu və Daxili İşlər Nazirliyinə məsələnin qısa müddətdə, tam təfsilatı ilə araşdırılması, cinayətkarların tapılması və məsuliyyətə cəlb edilməsi, habelə hadisənin baş vermə səbəbləri, istintaqın gedişi haqqında dövlət başçısının və ictimaiyyətin müntəzəm qaydada məlumatlandırılması ilə bağlı tapşırıqlar verib. Azərbaycan Prezidenti məsələni şəxsi nəzarətində saxlayacağını və cinayətkarların tapılaraq qanunauyğun şəkildə cəzalandırılacağını diqqətə çatdırıb. Prezident bundan sonra da Azərbaycanda fundamental insan hüquq və azadlıqlarının, həmçinin söz və məlumat azadlığının, kütləvi informasiya vasitələrinin müstəqilliyinin və xüsusilə jurnalist fəaliyyətinin təhlükəsizliyinin təmin olunması üçün zəruri tədbirlərin şəxsi nəzarəti altında davam etdiriləcəyini bildirib.

Demokratik inkişafı şərtləndirən ən mühüm dəyərlərdən biri də kütləvi informasiya vasitələrinin müstəqilliyinin, o cümlədən mətbuat, söz, fikir azadlıqlarının yüksək səviyyədə təminatıdır. Bu azadlıqlar cəmiyyətdə sosial məsuliyyəti, şəffaflığı, siyasi plüralizmi, tolerantlığı şərtləndirməklə yanaşı, beynəlxalq konvensiyalarda və digər normativ hüquqi aktlarda təsbit edilmiş insan hüquqlarının etibarlı müdafiəsinə geniş imkanlar açır. Kütləvi informasiya vasitələri cəmiyyət həyatının bütün sahələrinə təsir göstərən qüdrətli vasitələrdən biri olaraq ictimai rəyin formalaşmasında, habelə ictimai-siyasi proseslərin inkişaf istiqamətlərinin müəyyənləşməsində mühüm rol oynayır. Prezident İlham Əliyev respublikada kütləvi informasiya vasitələrinin sərbəst fəaliyyətinin, jurnalistlərin öz iradələrini azad şəkildə ifadə etməsinə bütün imkanların yaradılmasının tərəfdarıdır. Jurnalistlərin əməyini daim yüksək qiymətləndirən dövlət başçısı həm də onların istənilən probemlərinin həll edilməsi üçün bütün zəruri vasitələrdən istifadə edir. Tam əminliklə qeyd edə bilərik ki, dövlət başçısının xüsusi nəzarətə götürdüyü bu hadisə hüquq mühafizə orqanları tərəfindən tez bir zamanda araşdırılacaq və jurnalist Rasim Əliyevin ölümündə günahkar olan şəxslər qanun qarşısında cavab verəcəklər.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***